NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2024, № 1 (127)
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2024, № 1 (127)
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2024, № 1 (127)

# SOSİAL ELMLƏR VƏ HÜQUQ

**QƏRİB ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

**DOI: 10.30546/155244.2024.2.127.021**

## CƏMİYYƏT HƏYATINDA SİYASİ SFERANIN ROLU VƏ YERİ

*Məqalədə cəmiyyət həyatında siyasi sferanın yeri və rolu təhlil edilir. Siyasət dövlətin, insanların və dövlətin, insanlar və sosial qrupların fəaliyyəti və ünsiyyəti ilə əlaqələndirilir. Siyasəti həyata keçirən dövlətin xarakter xüsusiyyətləri, hakimiyyət strukturlarının formaları araşdırılır. Cəmiyyətin, "siyasi mühiti" anlayışına tərif verilir.*

*Siyasi rejim forması kimi demokratiya və totalitarizmin xüsusiyyətləri, siyasi mühitdə "dövlət" və "vətəndaş cəmiyyəti" anlayışları arasında fərqlər müəyyənləşdirilir. Belə nəticəyə gəlinir ki, totalitar rejimdə bir növ vətəndaş cəmiyyətinin dövlət tərəfindən mənimsənilməsi baş verir. Yalnız demokratik rejim dövlətlə vətəndaş cəmiyyəti arasında balanslaşdırılmış və ahəngdar münasibətlərin mexanizmini formalaşdırmağa qadirdir.*

***Açar sözlər:*** *Siyasət, siyasi sfera, dövlət, sosial qruplar, hakimiyyət, cəmiyyət, totalitar rejim, demokratiya, vətəndaş cəmiyyəti*

Son onilliklərdə siyasət getdikcə daha çox sosial subyektin digər subyektlərə və ya obyektlərə münasibətdə şüurlu şəkildə həyata keçirilən davranış xətti kimi müəyyən edilir. Sovet dövründə mövcud olan, onu bir sinif və ya dövlətlə məhdudlaşdıran izahlardan fərqli olaraq, subyekt dedikdə, ümumi olaraq sosial qruplar - (və hər şeydən əvvəl, əlbəttə ki, dövlətlər, siniflər), xalqlar, millətlər, siyasi partiyalar və insanların bir çox başqa birlikləri başa düşülür. Siyasətin özü istənilən halda, təkcə başqa siniflərə və dövlətlərə münasibətdə deyil, həm də başqa xalqlara, müxtəlif inanclara, demoqrafiyaya, ətrafdakı coğrafi mühitlə qarşılıqlı əlaqələrdə və s. münasibətdə həyata keçirilə bilər. Bu baxımdan, getdikcə daha çox "insanların davranış xətti", "cəmiyyətin idarə olunması" və s. kimi qeyri-sinfi anlayışlarla əlaqələndirilən "siyasət" anlayışının tərifi diqqətəlayiqdir. Onu da yaddan çıxarmamaqla yanaşı, əlbəttə ki, "cəmiyyətin siyasi mühiti" anlayışının aşağıdakı tərifini qəbul edə bilərik: siyasi mühit - cəmiyyətdə siyasi münasibətləri tənzimləyən dövlət və siyasi təşkilatların, institutların və müəssisələrin məcmusudur. Siyasi mühitin əsas altsistemlərinə dövlətlər, siyasi partiyalar, ictimai təşkilatlar (həmkarlar ittifaqları və s.), siyasi münasibətlər, o cümlədən beynəlxalq əlaqələr, siyasi şüur və s. aiddir.

Cəmiyyətin sinifə qədərki təşəkkülü zamanı siyasət insanları idarə etmək sənəti kimi sosial-qrup, sinfi yönümlərə malik deyildi, sadəcə birgə aksiyalar təşkil etmək, insanlar və tayfalar arasında münasibətləri tənzimləmək zərurəti yaranırdı. Bu da müvafiq səlahiyyətlərə malik olan rəhbərlərin, ağsaqqalların namizəd irəli sürməsi ilə kifayətlənirdi. Lakin zaman keçdikcə belə hakimiyyət dövlət formasını aldı: idarəetmə halqası özünü göstərdi, orduya, polisə, həbsxanalara, müxtəlif növ məcburetmə qurumlarına ehtiyac yarandı; hakimiyyətin qanunverici, icra və məhkəmə orqanlarına bölünməsi baş verdi. Dövlətin strukturuna, xüsusilə orta əsrlərdə kilsə təşkilatları da daxil idi. Kilsə maraqları çox vaxt feodal sinfinin və bu kiçik sosial qrupun siyasətini həyata keçirən dövlətin maraqları ilə üst-üstə düşürdü.

Dövlətin xarakterik xüsusiyyətlərinə qeyd olunan strukturlardan (hakimiyyət, ordu, polis və ya milis, məhkəmə sistemi və s.) əlavə olaraq, həmin dövlətin yurisdiksiyasına daxil olan ərazinin

mövcudluğu, müəyyən sayda əhalinin olması, dövlət tərəfindən sanksiyalaşdırılan normalar sistemini müəyyən edən qanunun olması, dövlət orqanının, onun bölmələrinin, ordunun, məhkəmə institutlarının saxlanması üçün zəruri olan vergi yığım xidmətinin olması və s. aid edilir.

Hakimiyyət strukturunun üç altsistemi də öz aralarında funksiyaların müvafiq bölgüsünə əsaslanır: Qanunverici hakimiyyət orqanları qanunvericilik, qanunların hazırlanması və qəbulu funksiyalarını həyata keçirir; İcra hakimiyyəti mərkəzdə və yerlərdə qəbul edilmiş qanunların reallaşdırılmasını hədəfləyir; Məhkəmə hakimiyyəti məhkəmə icraatı funksiyasını yerinə yetirir.

Qeyd olunan üç funksiyadan başqa dövlət sisteminin normal fəaliyyətini təmin etmək vəzifəsi olan dövlətin bir sıra başqa funksiyaları da var. Əgər dövlətin bir sıra funksiyaları hakim sosial təbəqənin maraqlarını kifayət qədər lakonik şəkildə ifadə edirsə, o zaman digər funksiyaları yerinə yetirərkən, xüsusən də təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasını təşkil edərkən, cinayətkarlığa qarşı mübarizəyə başladıqda, ölkənin hərbi müdafiəsinin təşkili zamanı və s. hallarda siyasi mühitin bu mərkəzi orqanının ilkin anlayışına uyğun olaraq, özünün sinifüstü, universal xarakterini nümayiş etdirə bilər və nümayiş etdirməlidir. V.S.Barulin dövlətin mahiyyətinin vulqar-sosioloji şərhinə qarşı çıxış edərək yazır: “Dövlət müəyyən mənada bütün insanların mənafeyini ifadə edir, o, hər kəsin münasibətlərini tənzimləyən, onların mənafeyini uyğunlaşdıran, hər bir insanın həyatı və fəaliyyəti üçün şərait, imkanlar təmin edən orqandır... Dövlətin sinfi mahiyyəti – onun fəaliyyətinin bir sinfin xeyrinə olan obyektiv tendensiyasıdır, bu, həmin sinfin mənafeyinin üstünlüyüdür, lakin heç bir halda dövlətin bir sinifin daxilində “əriməsi” və heç bir halda bir sinifin digər siniflərə qarşı mütləq qarşıdurma vəziyyətində olması demək deyil” (2, s.150).

Cəmiyyət tarixində ali dövlət hakimiyyətinin iki əsas təşkil forması mövcud olub: monarxiya və respublika. Monarxiya idarəetmə forması dövlət başçısının dəyişdirilməsinin irsi prinsipi ilə xarakterizə olunur. Monarxın səlahiyyətlərindən asılı olaraq, bu idarəetmə formasının mütləq monarxiya və konstitusiyalı monarxiya kimi növləri var. Üstəlik, əgər mütləqiyyətin əlaməti dövlət başçısının praktiki olaraq qeyri-qanuni hakimiyyətidirsə, konstitusiyalı monarxiya onun səlahiyyətlərinin məhdudlaşdırılması ilə xarakterizə olunur. Hazırda dünyada qırxa yaxın ölkə monarxiya idarəetmə forması ilə idarə olunur, onların əksəriyyəti parlamentli monarxiyalardır (Böyük Britaniya, Yaponiya, İsveç, Norveç və s.) (7, s.299-300).

Respublika dövlət hakimiyyətinin elə bir idarəetmə formasını özündə əks etdirir ki, dövlət hakimiyyətinin ali orqanları ya seçilir, ya da ümummilli nümayəndəlik institutu tərəfindən formalaşdırılır. Respublika idarəetmə formasının üç əsas növü var: 1) güclü prezident hakimiyyəti – ümumi səsvermə yolu ilə dövlət başçısının parlamentdən asılı olmayaraq seçilməsi, dövlət başçısının və hökumət başçısının səlahiyyətlərinin prezidentin əlində cəmləşdirilməsi, prezident tərəfindən hökumətin təyin edilməsi, hökumətin prezident qarşısında cavabdeh olması (məsələn, ABŞ); 2) parlament respublikası – prezidentin parlament vasitəsi ilə seçilməsi, hökumət başçısının, baş nazirin idarə olunmasında həlledici rol, parlament yolu ilə hökumətin formalaşdırılması, hökumətin parlament qarşısında məsuliyyəti; yarıparlamentli respublika – ümumxalq səsverməsi yolu ilə parlamentdən asılı olmayaraq prezidentin və ya dövlət başçısının seçilməsi, güclü prezident hakimiyyəti, hökumətin parlament qarşısında cavabdeh olması (Fransa, Portuqaliya, Finlandiya və s.). Burada müxtəlif idarəetmə formalarının fərqləndirilməsinin əsasını dövlət hakimiyyətinin ali orqanlarının hüquqi statusu və münasibətləri təşkil edir (7, s.299).

Dövlətlər həm də siyasi rejimlərlə səciyyələnir ki, onlar təkcə müxtəlif dövlətlər üçün deyil, həm də mövcudluğunun müxtəlif dövrlərində eyni dövlət üçün fərqli ola bilər. Bəşəriyyət tarixində, əsasən, iki tip siyasi rejimin mövcudluğu qəbul edilir: demokratik rejim və diktatura rejimi (totalitar və avtoritar).

“Demokratiya” ilk dövlətlərin təşəkkül tapmasından əvvəl yaranmış və insanların bir çox müxtəlif birliklərinin fəaliyyətində mövcuddur. Tədqiqatçıların fikrincə, ilk sinifli cəmiyyətlərin yaranması ilə, şəhər-polislərin formalaşması ilə bu növdən olan bilavasitə və ya birbaşa demokratiya 5-6 mindən çox olmayan əhalini bir yerə toplamaq mümkün olan yerlərdə mövcud idi. Məhz bu sayda əhalinin mövcudluğu şəraitində rəqəmlə çoxluğu və azlığı dəqiq nəzərə almaq, səslərin

hesablanmasının nəticələrini iki dəfə yoxlamaq və ümumi olaraq mübahisəsiz qərar qəbul etmək mümkün idi. Belə bir demokratiya bu gün də "istehsalat demokratiyası" qismində mövcuddur. İctimai təşkilatların fəaliyyəti çox vaxt birbaşa demokratik idarəetmə prinsipinə tabe edilir. Dövlət-siyasi quruluşun demokratiyası uzun əsrlər boyu əhalinin bilavasitə iştirakı ilə deyil, dolayı yolla, məsələn, seçicilərin nümayəndələri vasitəsilə dövlət işlərində iştirakı ilə əlaqələndirilib. Demokratik xarakter daşıyan dövlət aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur: çoxluğun iradəsinin hakimiyyət mənbəyi kimi tanınması, vətəndaşların hüquq və azadlıqlarının bərqərar olması və onlara riayət edilməsi, onların bərabərliyi, ictimai həyatın proseslərini idarə etmək imkanları, əsas dövlət orqanlarının seçkili olması, qanunun aliliyi. Bir çox ictimai elmlər üzrə bir çox alimlər tərəfindən tanınan bu xüsusiyyətlərə tez-tez başqaları da əlavə olunur: çoxpartiyalı sistemin işləməsi, əhalinin yüksək həyat səviyyəsi və s. Bununla belə, onları konkret siyasi rejimin mahiyyətini müəyyən etmək üçün əvvəlkilər kimi qeyd-şərtsiz hesab etmək çətindir. Məsələn, çoxpartiyalı sistem bir partiyanın cəmiyyətdə hökmranlığı və diktatorun özbaşınalığı üçün pərdə kimi də mövcud ola bilər. Onu da nəzərə almaq lazımdır ki, demokratik çoxluğun iradəsinin təzahürü hələ ədalətli dövlətin zəmanəti deyil. Demokratiyadan oxlokratiyaya (kütlə hakimiyyəti) məsafə bir addımdır. Aristotel onu da qeyd edirdi ki, demokratiya qanunlara məhəl qoymayan oxlokratik hakimiyyətə çevrilə bilər, o zaman hər cür demaqoqlar və yaltaqların xalqın adından idarəçiliyi hökm sürər. Demokratiyanın mahiyyəti çoxluğun iradəsini ifadə etməsində deyil, xalqın öz seçilmiş nümayəndələri vasitəsilə ağlabatan qanunvericilik yaratmaq hüququndadır ki, buna xalq özü də tabe olmalıdır. Bununla belə, azlıq səsvermə hüququna və çoxluq tərəfindən dinlənilmə hüququna malik olmalıdır. Amerikalı filosof D.Dyui yazırdı: "Demokratik idarəetmə formalarını, ümumi seçki hüququnu, həm icra, həm də qanunvericilik orqanlarının səs çoxluğu ilə seçilməsi praktikasını həyata keçirən eyni qüvvələr həm də bütövlükdə dostcasına təşkilatlanmış cəmiyyətin əsl alətinə çevrilməsini tələb edən humanitar ideallarin həyata keçirilməsinə yönəlmiş sosial siyasətə mane olan şərait yaratmışdır. "İnsan münasibətlərinin yeni əsri" adekvat institusional dəstəyə malik deyil. Demokratik cəmiyyət bir çox cəhətdən hələ də başlanğıc mərhələsindədir, qeyri-mütəşəkkil vəziyyətdədir" (4, s.80). Deməli, yuxarıda sadalanan demokratiya əlamətləri dövlət rejiminə münasibətdə yalnız hərtərəfli, öz vəhdətində və lazımi şəraitdə götürüldüyü halda effektiv olur.

Böyük Britaniyanın məşhur siyasi və dövlət xadimi U.Çörçill vaxtilə qeyd edirdi ki, demokratik dövlət hələ də mükəmməllikdən uzaqdır. O, bununla belə əlavə edirdi: lakin bəşəriyyət hələ ondan daha yaxşı heç nə tapmayıb.

Rus filosofu İ.A.Qobozov demokratiyanın müsbət və mənfi cəhətlərini ətraflı araşdıraraq belə bir nəticəyə gəlmişdi ki, "müasir demokratiya elan etdiyi məqsəd və prinsiplərdən çox uzaqdır... Müasir demokratiya üçün köklü yenidənqurmaya ehtiyac var" (3, s.152). Əsl siyasi demokratiya necə olmalıdır? Bəzi filosoflar əsas xüsusiyyətləri aşağıdakılarla üst-üstə düşən siyasi demokratiya təsəvvürlərini bölüşürlər: məmurların ümumxalq seçkiləri, onların hakimiyyətdə qalma müddətinin qısa olması və tez-tez seçkilərin keçirilməsi. D.Dyui deyir: "Bu və ya digər dövlət məmurunun hakimiyyətdə qalıb-qalmayacağı və xidmətinə görə hansı mükafatı alacağı vətəndaşların özlərindən asılı olsaydı, o zaman məmurların şəxsi maraqları bütün xalqın, ən azından onun zəhmətkeş və mülkiyyətə malik olan hissəsinin maraqları ilə üst-üstə düşərdi. Ümumxalq səsverməsi yolu ilə seçilən məmurlar biləcəklər ki, onların vəzifəyə seçilmələri əhalinin mənafeyini nə qədər ciddi və məharətlə müdafiə edəcəklərindən asılıdır. Vəzifədə qalmağın qısamüddətli olması və tez-tez keçirilən seçkilər məmurların mütəmadi hesabatlılığını təmin edəcək, seçki məntəqələrinin açıldığı gün onların mühakimə günü olacaq. Bu günün qorxusu onları daim özlərinə nəzarət etməyə məcbur edəcək" (4, s.69).

İndi totalitar siyasi rejimin xarakterik xüsusiyyətlərini nəzərdən keçirək. Bu, dövlət və ictimai həyatın bütün sahələrinə nəzarət edən və idarə edən, həm ayrı-ayrı fərdlər, həm də sosial qruplar tərəfindən müstəqil fikir bildirmək cəhdlərini amansızca boğan bir rejimdir; ümumbəşəri və məsumluq iddiasında olan ideologiyanın intensiv fəaliyyət göstərməsi, cəmiyyətin və insanın, bütün dünyanın köklü transformasiyası, müxtəlif utopiyaların zorla həyata keçirilməsi; qarşıya qoyulmuş

məqsədlərə çatmaq naminə cəmiyyətin bütün üzvlərini birləşdirmək məqsədi ilə daimi və davamlı siyasiləşdirilməsi; qeyd-şərtsiz loyallıq və müəyyən siyasi prosesdə fəal iştiraka nail olmaq üçün cəmiyyətin bütün üzvlərinin səfərbər edilməsi; daxili və xarici düşmənlərlə daimi mübarizə; ideologiyanın hər bir insanın gündəlik həyatına yeridilməsi üçün ən mühüm alət kimi terror və gizli polisin geniş şəkildə istifadə edilməsi; müstəqil siyasi və ictimai təşkilatların ləğvi, bir qayda olaraq, kütləvi təşkilatlara rəhbərlik edən bir dövlət siyasi partiyasının yaradılması; fundamental hüquqların, xüsusilə toplaşmaq, nümayiş keçirmək hüququnun, mətbuat azadlığının, elmin, incəsənətin və ədəbiyyatın azad inkişafının qadağan edilməsi; mərkəzləşdirilmiş bürokratiya sistemi, qarşısında hətta dövlət partiyasının üzvlərinin də aciz qaldığı totalitar elitanın yaradılması; praktikada özbaşınalığa gətirib çıxaran partiya və dövlət orqanlarının dualizmi və ziddiyyətli fəaliyyəti, səlahiyyətlərin dəqiq bölünməməsi halları; totalitar idarəetmə, bir qayda olaraq, açıq-aşkar xarizmatik xarakter daşıyır, insanlar liderə, fürerə və ya din xadiminə təkcə onun qüsursuzluğuna və peyğəmbərlik möcüzələrinə inanaraq deyil, həm də sevgi ilə itaət edirlər.

Totalitar rejimdə dövlət hakimiyyəti ciddi mərkəzləşdirilmiş və faktiki olaraq hakim partiya aparatına, hakim təşkilatlara və ya hərbi xuntaya məxsusdur. Dövlət və hökumətin başında bir qayda olaraq ali qanunverici, icraedici, bəzən də məhkəmə funksiyasını öz əlində cəmləşdirən, heç kimə hesabat verməyən lider durur. Ölkə əhalisi praktiki olaraq dövlət idarəetmə sistemindən kənarlaşdırılır, belə ki, nümayəndəli orqanlar ya sadələşdirilir, ya da ümumi seçki hüququ pozularaq formalaşdırılır. Məsələn hitler Almaniyasında reyxstaq deputatların bir hissəsi birbaşa fürer tərəfindən, qalan hissəsi isə faşist partiyası tərəfindən seçilirdi. Muxtar hakimiyyət orqanları və yerli özünüidarəetmə orqanları yuxarıdan təyin edilmiş “emisarlar” əvəz edirdi.

Totalitar rejimin qurulması ilə idarə edən dairələr nəinki, gizlədir, hətta açıq şəkildə zorun müxtəlif metodlarını nümayiş etdirirdilər, həyata keçirilən kursa qarşı istənilən müqavimət cəhdi kəskin şəkildə əzir, güc strukturları olan ordunun, polisin və təhlükəsizlik orqanlarının ictimai həyatın bütün sahələrinə müdaxiləsi xeyli dərəcədə fəallaşır. İqtisadi sferada bir qayda olaraq dövlət tərəfindən inhisar nəzarəti hakimlik edir ki, buna islahat keçirməkdən tam imtina etmək deyildir.

“İdeal” totalitarizm üçün birpartiyalı sistem və yaxud ciddi nəzarət altında rejimi müdafiə edən bir neçə partiya və “rəsmi” həmkarlar ittifaqı xasdır. Müxalif partiyalar hərəkatların fəaliyyəti qəti qadağandır. Ona görə də onlar gizli şəraitdə və yaxud mühacirətdə fəaliyyət göstərirlər. Rejimin rəqibləri polis terroruna məruz qalır.

Totalitar rejimin özünə məxsusluğu konstitusiyanı qeyri-müəyyən vaxta qədər dayandırmaq və ya ləğv etməkdən ibarətdir. Bu halda dövlət başçısının fərmanı, icraedici hakimiyyət strukturlarının sərəncamları və ya ordu direktivləri qanun qüvvəsini alır, vətəndaşların demokratik hüquq və azadlıqları mühüm şəkildə məhdudlaşdırılır.

Onu da qeyd edək ki, totalitar sistemlər həm daxili – məhsuldar qüvvələrin, elmin, texnikanın, incəsənətin inkişafı, söz azadlığı, təşəbbüs və müstəqillik tələb etdiyinə görə, həm də xarici səbəblərdən – müharibələrin təsiri altında məğlubiyyətə məhkumdur, bu siyasi rejimlər tezliklə tarixən özünü tükəndirəcək. Bu elə bir quruluşdur ki, orada hüquqi subyektlər, qanunlar, qanunun aliliyi, hüquqi dövlət yoxdur. Burada hüquqi şüur psixi mexanizmlərlə – aclıq, qorxu, əzab və alçaltmaqla, yaradıcı iş isə kölə isterikası gərginliyinin psixofiziki mexanizmi ilə əvəz olunur.

“Ona görə də totalitar rejim nə hüquqi, nə də dövlət rejimidir... O, bütünlüklə heyvani və köləliyin “bədən-ruh” mexanizmlərinə; əmək nəzarətçilərinin hədə-qorxu dolu əmrlərinə; yuxarıdan verilən özbaşına sərəncamlara əsaslanır... Bu, görünməmiş ölçülərdə quldarlıq diktaturasıdır...” (5, s.111-113).

Fransız filosofu və sosioloqu R.K.F.Aron 1993-cü ildə rus dilində nəşr olunan “Demokratiya və totalitarizm” kitabında digərləri ilə yanaşı, totalitarizmin ideoloji terror kimi əlamətlərinə də diqqət yetirir. O yazırdı: “Hər hansı bir fəaliyyət dövlətə aid edildiyi və ideologiyaya tabe olduğundan, peşə sahəsində hər hansı bir günah ideoloji suça çevrilir. Nəticə – siyasiləşmə, ayrı bir fərdin bütün mümkün günahlarının ideologiyalaşması və son akkord – eyni zamanda siyasi və ideoloji terror” (1, s.231). Bu əlamətlərlə birinci – hər hansı bir partiyaya siyasi fəaliyyət üçün verilmiş monopoliya

hüququ əsasında qurulmuş rejimdə totalitarizmin ortaya çıxması ilə əlaqəlidir. Totalitarizmdə onun bütün xüsusiyyətləri qarşılıqlı olaraq bir-birinə bağlıdır. R.Aron yazır: "Totalitarizmə tərif verəndə, əlbəttə ki, partiyanın müstəsna mövqeyini, yaxud iqtisadi fəaliyyətin milliləşdirilməsini və ya ideoloji terroru əsas hesab etmək olar. Lakin təzahürün özü yalnız bütün bu xüsusiyyətlər birləşdirildikdə və tam əks etdirildikdə, bütöv formasını əldə edir" (1, s.231).

Siyasi mühitə nəzər yetirərkən, "dövlət" və "vətəndaş cəmiyyəti" anlayışları arasındakı fərqə daha çox diqqət göstərildiyi məlum olur. Birinci anlayış siyasi strukturlarla möhkəm əlaqələndirilmişdirsə, ikincinin bir sıra mənaları var (bəzi hallarda, məsələn, "vətəndaş cəmiyyəti" və "burjua cəmiyyəti" anlayışları müəyyən edilir). Son onillikdə ən çox yayılan, dövləti istisna edən, dövlətə qarşı çıxan "vətəndaş cəmiyyəti"dir. "Vətəndaş cəmiyyəti", cəmiyyətdəki qeyri-siyasi münasibətlərin məcmusunu ifadə edən anlayışdır: iqtisadi, sosial, mənəvi, dini, milli və s. Bu, könüllü fəaliyyətlə assosiasiya və təşkilatlar yaradan azad vətəndaşların elə bir özünüidarə mühitidir ki, bu vətəndaşların və təşkilatların fəaliyyəti dövlət hakimiyyəti tərəfindən birbaşa müdaxilə və özbaşına tənzimləmə müvafiq qanunlarla qorunur. İ.A.Qobozov yazır: "Vətəndaş cəmiyyətində dövlətin bütün vətəndaşları özünüifadə edə bilir, rəsmi hakimiyyətin bu və ya digər fəaliyyətlərinə münasibətini açıq şəkildə ifadə edə bilir, dövlət orqanlarının müəyyən qərarlarına etiraz edə bilir və bir çox hallarda qeyri-rəsmi strukturların təsiri altında rəsmi strukturlar bu məsələyə yenidən baxmağa məcbur olur" (3, s.132). Vətəndaş cəmiyyətinin qeyri-siyasi, qeyri-dövlət mahiyyəti bu anlayışın aşağıdakı tərifində də yer alır: "Vətəndaş cəmiyyəti, fərdlərin əsas etibarilə qeyri-dövlət və qeyri-siyasi üsullarla ehtiyac və maraqlarının ödənilməsini təmin etmək üçün nəzərdə tutulmuş ictimai həyat fəaliyyətinin təbii formalarının məcmusudur" (6, s.314).

Tarixdə siyasi cəmiyyət (dövlət) vətəndaş cəmiyyəti ilə müxtəlif münasibətlərdə olub. Totalitar rejimdə bir növ vətəndaş cəmiyyətinin dövlət tərəfindən mənimsənilməsi baş verir. Yalnız demokratik rejim siyasi dövlətlə vətəndaş cəmiyyəti arasında balanslaşdırılmış və ahəngdar münasibətlərin mexanizmlərini formalaşdırmağa qadirdir.

## ƏDƏBİYYAT


1. Арон Р.К.Ф. Демократия и тоталитаризм. М., 1993.
2. Барулин В.С. Социальная философия. М., 2000.
3. Гобозов А. Философия политики. М., 2002.
4. Дьюи Д. Общество и его проблемы. М., 2002.
5. Ильин И.А. Собр. соч. В 10 т. Т. 2. Кн. 1. М., 1993.
6. Федосеев А.А. Гражданское и политическое общество. Правовое государство // Основы современной философии. СПб., 2001.
7. Федосеев А.А. Основные элементы современной политической системы // Основы современной философии. СПб., 1999.